Respublikamızda rəsmi və qeyri-rəsmi qeyd olunan çox sayda bayramlar var ki, onlardan biri çox qədim tarixi olan Novruz bayramı xalqımızın həyatında geniş sosial əhəmiyyət daşıyır. Hələ XI əsr tarixçilərindən Nizami Əl-Mülk "Siyasətnamə"sində Novruz bayramının kütləvi xalq bayramı olduğunu qeyd edir.

İnsanlığın, yaranışın daşıyıcısı olan bu bayram bir çox alimlərin geniş tədqiqat obyektinə çevrilmişdir. Əksəriyyəti bayramlarda oxunan və oynanılan xalq oyun və nəğmələri haqqında Azad Nəbiyev"El nəğmələri və xalq oyunları" adlı kitabında xalqımızın şifahi söz yaddaşında illərlə qoruyub saxladığı inciləri toplayaraq çox dəyərli araşdırma vermişdir. Heç təsadüfü deyil ki, kitabda bu müdriklik aləminə əmək, əkinçi nəğmələrinin tədqiqi ilə başlanılır.




***Ənənəvi xarakter daşıyan bayramlar Türk xalqının ictimai həyatında mühüm yer tutur. Mədəniyyətin daşıyıcısı olan, kütləvi forma kəsb edən bayramlar hər bir xalqın tarixini, mənəvi təkamülünü, təbiətə və cəmiyyətə münasibətini, ümummilli şüurun inkişaf səviyyəsini açıqlayan ictimai-bədii bir hadisədir.***

Təbiətşünas alim H.B. Zərdabinin bu bayramın xalqın həyat təcrübəsi ilə aşkar edildiyi haqda fikirləri də əvəzsizdir. Babalarımız hələ lap qədimlərdən öz həyat təcrübələri əsasında əkin-biçin, yaylaq-qışlaq vaxtını dəqiq müəyyən edə bilmişdir. Səməni göyərdilməsi və müxtəlif dənli bitkilərdən hazırlanan şirniyyatların süfrəyə düzülməsi kimi rəmzlərdə yaşıllaşma, təbiətin oyanması, təzələnməsi öz ifadəsini tapır.

Bütün bunlar bir daha Novruz bayramının köklərinin çox qədim dövrə təsadüf etdiyini, şüurun, əməyin, əkinçiliyin, oturaq həyat tərzinin yaranışı ilə bağlı olduğunu sübut edir.

Tarixə nəzər salsaq görərik ki, Novruz bayramı ayrı-ayrı zaman daxilində müxtəlif adlarla adlandırılmışdır. "Yaz bayramı" adı ilə Novruzun qeyd edilməsi haqqında ilk yazılı məlumat eradan əvvəl 505-ci ildən məlumdur. Publisist şair Məmməd Aslan "Səməni, saxla məni" adlı məqaləsində yazır: "Eyni günə, eyni aya təsadüf edən bu bayram Türk xalqlarının rəvayətinə görə Ərgənəkon bayramı adlanır. Türk xalqları Novruz adını tarixin bir çağında farslardan öyrənənə qədər, eyni bayramı Ərgənəkon adı ilə keçirmişdir". Novruz bayramı müəyyən zaman daxilində ad dəyişmələrinə məruz qalsa da, mahiyyət etibarı ilə heç bir dəyişikliyə uğramamışdır.

Yaz əmək ənənələri əsasında yaranan Novruz bayramın Şərq xalqlarının hər birinin milli özünəməxsusluğunu qoruyub sax-



layan müştərək ortaq dəyərlərdən biridir.



Gecə və gündüzün bərabərləşdiyi, yeni günün başlanğıcı olan Novruzu Şərq aləmində müasir dövrdə başqa türk xalqlarından fərqli olaraq Özbək xalqı daha geniş şəkildə qeyd edir.

XX əsrdə xalqımızın başına gətirilən müsibətlər Novruzdan da yan keçmədi. Ona "Dini bayram" damğası vuraraq bu ad altında xalqın bir millət kimi formalaşmasında əsas meyar olan mənəvi dəyərlərini məhv etməyə çalışdılar.

Novruz bayramı Azərbaycan Xalq Cumhuriyyəti yarandığı ildə dövlət səviyyəsində kütləvi şəkildə qeyd olunmuş, milli birliyi nümayiş etdirən parad keçirilmişdir. Görkəmli şəxsiyyət M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan tarixi" əsərində 1943-cü ildə Almaniyada görüşdüyü azərbaycanlı əsirlərlə söhbətində milli adət-ənənələri özündə saxlayan bayramlar və mərasimlər haqqında belə bir nəticəyə gələrək yazır: "Nə Ramazan, nə də Qurban bayramı sovet gənclərinə məlum deyildir. Azərbaycanda əskidən çox böyük əhəmiyyətə malik olan bahar xalq bayramı "Novruz" da dəbdən düşmüşdür".

***Lakin bütün bu məhrumiyyətlərə baxmayaraq, qədim tarixə malik olan xalqımızın qan yaddaşına hopmuş, insanlığın, əməyin yaranışı, təbiətin oyanışı, mənəvi saflaşma, yeniləşmə ilə bağlı olan bu bayram əsrlərlə təzyiqlərə məruz qalsa da, məhv olmadı. Yaşadı, yaşayacaq və milli birliyimizin rəmzinə çevriləcəkdir.***

*Redaksiyadan:* *Jurnalımızın yaradıcı kollektivi və çoxsaylı oxucuları adından bütün mədəniyyət işçilərini Bahar bayramı münasibətilə ürəkdən təbrik edir, onlara uzun ömür, can sağlığı, yaradıcılıq uğurları arzulayırıq. Maraq üçün bildiririk ki, Novruz bayramının hələ çox qədimdən, eramızdan əvvəl IV-V əsrlərdə qeyd olunduğunu göstərirlər. Hətta belə ehtimal olunur ki, 3500 il əvvəl bu bayram dostluq, xoşbəxtlik, bolluq, sülh, etibarlılıq, biriliyə çağırış rəmzi kimi qeyd olunurmuş. 21 mart gecə ilə gündüzün bərabərliyi, gündüzün tədricən artması, torpaqda donun açılması, tarla işlərinin başlanması ilə səciyyələnən astronomik gündür. Bu bayram günəş təqvimi üzərində qurulan milli-dövlət bayramı sayılır...*

